**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№3 Humanitar elmlər seriyası 2015***

**UOT 94 (479.24)**

# ŞƏKİ RAYONUNDA ƏHALİNİN AİLƏ-NİKAH VƏZİYYƏTİ
## (siyahıyaalma materialları əsasında)

**A.Ə.MƏMMƏDOVA, U.M.PAŞAYEVA**
***Bakı Dövlət Universiteti***
***star.miri@mail.ru***

*Azərbaycan tarixən formalaşmış ailə-nikah ənənələri olan bir ölkədir. Son illərədək bu ənənələr sarsılmaz şəkildə qalmaqda idi. Lakin son dövrlərdə qloballaşan dünyaya inteqrasiya olan Azərbaycan cəmiyyətinə kənar təsirlər, eyni zamanda daxildə gedən sosial-iqtisadi proseslər mövcud ənənələrin dəyişməsinə, bəzi hallarda isə kökündən sarsılmasına səbəb olmaqdadır. Statistik rəqəmlər göstərir ki, ənənəvi ailə-nikah münasibətlərinin dəyişməsi və ümumilikdə, əhalinin ailə-nikah vəziyyəti demoqrafik vəziyyətə ən ciddi təsir göstərən amillərdəndir. Bu səbəbdən həmin problemin öyrənilməsi və daima diqqətdə saxlanılması olduqca vacibdir.*

*Araşdırmada konkret olaraq, Şəki rayon əhalisinin ailə və nikah vəziyyəti tədqiq olunmuş və statistik rəqəmlər əsasında analiz edilmişdir.*

**Açar sözlər:** Şəki rayonu, əhali, ailə-nikah, demoqrafiya

Demoqrafik siyasət müasir dövrdə dövlətlərin daxili siyasətinin ən mühüm tərkib hissəsidir. Ailə-nikah, doğum, ölüm, təbii artım, adamların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, ömrünün uzadılması, miqrasiya və s. bu kimi prosesləri özündə birləşdirən – demoqrafiya siyasətində başlıca məqsəd demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesini təmin edən şərait yaradılmasına nail olmaqdır (1).

Demoqrafik proseslərə birbaşa təsir göstərən ən mühüm amillər arasında yuxarıda da qeyd etdiyimiz kimi, ailə-nikah mühüm yer tutur.

Azərbaycan tarixən formalaşmış ailə-nikah ənənələri olan bir ölkədir. Hər bir azərbaycanlı üçün ailə və nikah anlayışları həmişə əsas və həlledici olmuşdur. Düzdür, son illərdə bu ənənə əvvəlki kimi toxunulmaz statusunu saxlaya bilməsə də, yenə də əsas amil olaraq qalmaqdadır.

Bu baxımdan, ailə-nikah məsələlərinin öyrənilməsi, baş verən dəyişik-

liklərin səbəblərinin araşdırılması olduqca vacibdir.

Əhalinin nikah strukturu cins və yaşa görə qurulur. 1979-cu ilin siyahıyaalma materiallarından başlayaraq nikah vəziyyəti 4 kateqoriya üzrə qeydə alınır: ***nikahda olmayıb, nikahdadır, boşanıb, duldur*** *(2, 89)*. Həmin ildə bu kateqoriyalar üzrə respublikamızda ailə-nikah vəziyyəti aşağıdakı kimi olmuşdur.

Cədvəl 1

**16 və ondan yuxarı yaşda əhalinin nikah vəziyyətinə görə bölgüsü (1979), %**

| | Nikahda olanlar | Nikahda olmayanlar | Boşananlar | Dullar |
|---|---|---|---|---|
| Kişilər | 59,6 | 37,2 | 1,0 | 1,6 |
| Qadınlar | 54,5 | 26,2 | 3,0 | 15,7 |

**Mənbə**: Демографический энциклопедический словарь - Советская энциклопедия. Глав. редактор Д. И. Валентей. М.:1985 г.

Göründüyü kimi, nikahda olanların sayı digər 3 kateqoriya ilə müqayisədə çox yüksək idi. Ailənin hər şeydən üstün olması, nə qədər ciddi səbəblər olsa da, onun dağılmasının yolverilməzliyi[1] yuxarıdakı cədvəldəki rəqəmlərin ortaya çıxmasında çox mühüm rol oynamışdı.

Tədqiqat obyektimiz olan Şəki rayonunda da əhalinin ailə-nikah vəziyyəti ümumilikdə respublikadakı vəziyyətə uyğun idi.

Təəssüf ki, əlimizdə olan statistik məlumatlar XX əsrdə Şəki (Nuxa) rayonunda əhalinin ailə-nikah vəziyyətini daha ətrafli və ardıcıl öyrənməyə imkan vermir. Çünki 1930-cu ildə əvvəllər Nuxa adlandırılan Şəki rayonu yaradılan vaxtdan 1965-ci ilədək rayon əhalisinin ailə-nikah vəziyyətinə dair statistik rəqəmlər demək olar ki, yoxdur. İlk məlumat isə yalnız 1965-ci ilə təsadüf edir. Həmin ildə Nuxa (Şəki ) rayonunda 393 nikah qeydə alınmışdır. 10 il sonra, yəni 1975-ci ildə isə nikahların sayı 599 olmuşdur.

1965 və 1975-ci il statistik məlumatları göstərir ki, Şəki və onunla qonşu rayonlarda nikah və boşanmaların dinamikasında ciddi dəyişiklik yoxdur. 1965-ci ildə Şəki rayonunda hər min nəfərə düşən nikahın sayı 8,0%, 1975-ci ildə isə bu göstərici 8,8% olmuşdur. Hər min nəfərə düşən boşananların sayı 1965-ci ildə rayon üzrə 0,1% olmuşdur. 1975-ci ildə isə boşanma halı ümumiyyətlə, qeydə alınmamışdır.

---

[1] Azərbaycanda ailənin nə qədər vacib olduğunu göstərmək üçün hətta, yeni ailə quran gənc qizlara xeyir-dua veriləndə, “geriyə qayıtdı yoxdur” deyilirdi.

Cədvəl 2

**Qeydə alınan nikah və boşanmaların rayonlar üzrə sayı 1965-1975-ci illər[2]* (Şimal-Qərb rayonları üzrə)**

| | 1965-ci il | | | | Respublika üzrə cəmi: O cümlədən: Respublika tabeli şəhər və rayonlar | 1975-ci il | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Nikah | | Boşanma | | | Nikah | | Boşanma | |
| | Say | Əhalinin hər 1000 nəfərinə | Say | Əhalinin hər 1000 nəfərinə | | Say | Hər 1000 nəfərinə | Say | Hər 1000 nəfərinə |
| Respublika üzrə cəmi | 39077 | 8,5 | 3537 | 0,8 | | 47173 | 8,4 | 7096 | 1,3 |
| Rayonlar | | | | | Şəki şəhəri | 315 | 7,0 | 72 | 1,6 |
| Balakən | 329 | 7,3 | 7 | 0,2 | Balakən rayonu | 401 | 7,2 | 31 | 0,6 |
| Vartaşen (Oğuz) | 171 | 6,6 | 4 | 0,2 | Vartaşen rayonu | 285 | 9,9 | 22 | 0,8 |
| Zaqatala | 596 | 9,6 | 7 | 0,1 | Zaqatala rayonu | 566 | 7,5 | 44 | 0,6 |
| Qax | 329 | 9,8 | 5 | 0,1 | Qax rayonu | 337 | 8,6 | 20 | 0,5 |
| Qutqaşen (Qəbələ ) | 291 | 6,0 | 9 | 0,2 | Qutqaşen rayonu | 472 | 8,0 | 28 | 0,5 |
| Nuxa | 393 | 8,0 | 5 | 0,1 | Şəki rayonu | 599 | 8,8 | 2 | 0,0 |

**Mənbə:** Численность, состав, естественное и механическое движение населения Азербайджанской ССР. Статистический сборник. Центральное статистическое управление при Совете Министров Азербайджанской ССР. Баку, 1967 г. 375 стр.; сс.323-324. Численность, состав и миграция населения Азербайджанской ССР в 1975 году. Статистический сборник. Центральное статистическое управление при Совете Министров Азербайджанской ССР. Баку-1976 год. 339 стр. сс.168-170 .

Şəki rayonunda əhalinin ailə-nikah vəziyyətinə dair növbəti statistik məlumatlar 1999 və 2009-cu ilin siyahıyaalma materiallarındadır[3].

1999-cu ildə Şəki rayonu üzrə daimi əhalinin ailə-nikah vəziyyəti aşağıdakı kimi olmuşdur: 16 və yuxarı yaş əhalinin cəmi 104934 nəfərdir, onlardan 24845 nəfəri nikahda olmayıb, 71532 nəfəri nikahdadır, 914 nəfəri boşanıb və 7643 nəfəri isə duldur. Şəhər və kənd əhalisi arasında müqayisə aparıldıqdan sonra aydın olur ki, nikahda olanların sayı şəhərdə 29195, kənddə 42337 nəfər olmuşdur. Kənd əhalisi şəhər əhalisindən sayca daha çox olduğundan nikahda olanların sayları arasında da 13142 nəfər fərq olmuşdur.

2009-cu ildə aparılan siyahıyaalmada isə nikahda olanlar cəmi 84.376

[2] 1968-ci ildə Nuxanın adı dəyişdirilərək Şəki adlandırılır. Ona görə də, cədvəl 2-də əvvəl Nuxa sonradan Şəki rayonu yazılıb.

* cədvəl müəllif tərəfindən tərtib olunub

[3] 1989-cu il əhalinin siyahıyaalması SSRİ-nin dağılması ərəfəsində keçirildiyindən, təəssüf ki, ailə-nikah, doğum və ölüm haqqında məlumatları əks etdirən materiallar nəşr edilməmişdir. Bu səbəbdən onları əldə etmək mümkün olmamışdır.

nəfər, nikahda olmayanlar 36725 nəfər, boşananlar 1507 nəfər və dullar 8787 nəfər təşkil edirdi. Bu rəqəmləri şəhər və kəndlə müqayisə etsək görərik ki, şəhərdə 31513 nəfər, kənddə 52863 nəfər nikahda olanlar, şəhərdə 15811 nəfər, kənddə 20.914 nəfər isə nikahda olmayanlar, şəhərdə 693 nəfər, kənddə 814 nəfər boşananlar, şəhərdə 4189 nəfər, kənddə 4.598 nəfər dul qeydə alınmışdır.

Nikah və boşanmalara gəldikdə isə, onların əhalinin hər 1000 nəfərinə düşən dinamikasında ciddi dəyişiklik yoxdur. Lakin heç bir boşanma qeydə alınmayan 1975-ci illə müqayisədə artımı göstərir.

1999-cu ildə 16-29 yaş həddində nikahda olan qadınların sayı 9420 nəfər, kişilərin sayı 4560 nəfər, 30-49 yaşda qadın 19983 nəfər, kişi 20992 nəfər, 50-69 yaşda qadın 6276 nəfər, kişi 8.004 nəfər, 70-84 yaşda qadın 839 nəfər, kişi 1351 nəfər, 85-99 yaşda qadın 33 nəfər, kişi 73 nəfər olmuşdur. 2009-cu ildə isə 15-29 yaş həddində nikahda olan qadınların sayı 10885 nəfər, kişilərin sayı 5616 nəfər, 30-49 yaşda qadın 22.100 nəfər, kişi 22840 nəfər, 50-69 yaşda qadın 8153 nəfər, kişi 10251, 70-84 yaşda qadın 1636 nəfər, kişi 2.820 nəfər və 85-99 yaşda qadın 23 nəfər, kişi 52 nəfər olmuşdur.

Cədvəl 4

**Şəki rayonu üzrə daimi əhalinin yaş, cins və nikah vəziyyətinə görə tərkibi ( 1999-cu il siyahıyaalma materialları əsasında)**

| | 16 və yuxarı yaşlı əhalinin cəmi: | Yaş həddi | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 16-29 | 30-49 | 50-69 | 70-84 | 85-99 | 100 və yuxarı |
| **Nikahda olanlar** | 71532 | 13980 | 40975 | 14280 | 2190 | 106 | 1 |
| Kişi | 34981 | 4560 | 20992 | 8004 | 1351 | 73 | 1 |
| Qadın | 36551 | 9420 | 19983 | 6276 | 839 | 33 | |
| **Nikahda olmayanlar** | 24845 | 21346 | 3179 | 252 | 64 | 4 | |
| Kişi | 14186 | 12992 | 1136 | 50 | 7 | 1 | |
| Qadın | 10659 | 8354 | 2043 | 202 | 57 | 3 | |
| **Boşananlar** | 914 | 234 | 536 | 126 | 18 | | |
| Kişi | 179 | 46 | 101 | 30 | 2 | | |
| Qadın | 735 | 188 | 435 | 96 | 16 | | |
| **Dullar** | 7643 | 92 | 1225 | 3602 | 2398 | 311 | 15 |
| Kişi | 930 | 8 | 85 | 442 | 358 | 35 | 2 |
| Qadın | 6713 | 84 | 1140 | 3160 | 2040 | 276 | 13 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalisinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, I hissə, 566 səh., s.525

Müxtəlif səbəblərdən (müharibə, qəzalar, xəstəliklər və s.) dul qalanların ümumi sayı 1999-cu ildə 7643 nəfər, 2009-cu ildə isə 8787 nəfər olmuşdur. 2009-cu ildə 10 il əvvəllə müqayisədə bu rəqəm 1144 artmışdır. Diqqəti çəkən məsələlərdən biri də dul qadınlarla kişilər arasındakı fərqdir. 1999-cu ildə dul qalanlardan 6713 nəfəri qadın, 930 nəfəri kişi, 2009-cu ildə isə 7659 nəfəri

qadın, 1.128 nəfəri kişi olmuşdur. Göründüyü kimi, dul qadınlarla kişilərin sayında ciddi fərq var. Bu əsasən iki səbəbdən qaynaqlanır: kişilərlə müqayisədə qadınların orta yaş həddinin daha uzun olması və qadınların təkrar nikaha, xüsusilə də orta yaş həddində olanlar, getməməsidir.

Cədvəl 5

**Şəki rayonu üzrə daimi əhalinin yaş,cins və nikah vəziyyətinə görə tərkibi ( 2009-cu il siyahıyaalma materialları əsasında)**

| | Nikah yaşında olan əhalinin sayı-Cəmi | Yaş həddi | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 15-29 | 30-49 | 50-69 | 70-84 | 85-99 | 100 və yuxarı |
| **Nikahda olanlar** | 84376 | 16501 | 44940 | 18404 | 4456 | 75 | |
| Kişi | 41579 | 5616 | 22840 | 10251 | 2820 | 52 | |
| Qadın | 42797 | 10885 | 22100 | 8153 | 1636 | 23 | |
| **Nikahda olmayanlar** | 36725 | 31698 | 4223 | 666 | 131 | 7 | |
| Kişi | 20993 | 18891 | 1970 | 115 | 17 | | |
| Qadın | 15732 | 12807 | 2253 | 551 | 114 | 7 | |
| **Boşananlar** | 1507 | 289 | 932 | 251 | 34 | 1 | |
| Kişi | 389 | 77 | 237 | 61 | 14 | | |
| Qadın | 1118 | 212 | 695 | 190 | 20 | 1 | |
| **Dullar** | 8787 | 66 | 1373 | 3292 | 3702 | 338 | 16 |
| Kişi | 1128 | 10 | 118 | 247 | 702 | 50 | 1 |
| Qadın | 7659 | 56 | 1255 | 3045 | 3000 | 288 | 15 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 2009-cu il,Bakı, “Səda” nəşriyyatı, 2010, I cild, 629səh., s.596,597,598

İki siyahıyaalma arasında nikahda olmayanların sayında da ciddi fərq yaranmışdır. 1999-cu ildə 24845 nəfər nikah yaşında olub nikahda olmayanlar qeydə alınmışdısa, 2009-cu ildə bu rəqəm 35725 nəfər olmuşdur. Nikahda olmayanların say etibarilə böyük hissəsi 15-29 yaş həddinə düşür. 1999-cu ildə həmin yaş qrupundan olanların 24845 nəfəri, 2009-cu ildə isə 36725 nəfəri nikahda olmamışdır. 10 il ərzində bu yaş qrupuna aid nikahda olmayanların sayı 11880 nəfər artmışdır. Bunun səbəbləri təbii ki, müxtəlifdir. Lakin bu səbəblərin arasında 3-nü xüsusi qeyd etmək lazımdır: 1) təhsilini davam etdirməyə və iş həyatını qurmağa çalışan gənclər arasında nikahın daha gec yaşlarda (əsasən 30-35 yaşlarda) baş tutması, 2) işsizlik və 3) mənzil problemidir.

Cədvəl 6

**Şəki rayonu üzrə qadınların nikah vəziyyəti və doğulan uşaqların sayına görə bölgüsü ( 1999-cu il siyahıyaalma materialları əsasında)**

| | Qadınların sayı-cəmi | O cümlədən doğanlar | Onlardan doğduğu uşaqların sayı üzrə | | | | | | Doğmayanlar | Doğulan uşaqların ümumi sayı | Doğulan uşaqların orta sayı (hər 1000 qadına) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 | 5 və yuxarı | 10 və yuxarı | | | |
| **A** | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** |
| **Şəki rayonu üzrə-cəmi** | **54658** | **39022** | **4468** | **10628** | **9091** | **5451** | **8508** | **876** | **15636** | **137504** | **2516** |
| Şəhər əhalisi | 23402 | 16412 | 2238 | 5787 | 4157 | 2077 | 2079 | 74 | 6990 | 47612 | 2035 |
| Kənd əhalisi | 31256 | 22610 | 2230 | 4841 | 4934 | 3374 | 6429 | 802 | 8646 | 89892 | 2876 |
| **Heç vaxt nikahda olmayanlar** | **10659** | **21** | **6** | **7** | **3** | **1** | **4** | | **10638** | **60** | **6** |
| Şəhər əhalisi | 4750 | 12 | 4 | 4 | 1 | 1 | 2 | | 4738 | 30 | 6 |
| Kənd əhalisi | 5909 | 9 | 2 | 3 | 2 | | 2 | | 5900 | 30 | 5 |
| **Nikahda olanlar** | **36551** | **32752** | **3674** | **9773** | **8100** | **4584** | **6055** | **566** | **3799** | **109382** | **2993** |
| Şəhər əhalisi | 15031 | 13389 | 1757 | 5248 | 3536 | 1583 | 1236 | 29 | 1642 | 36659 | 2439 |
| Kənd əhalisi | 21520 | 19363 | 1917 | 4525 | 4564 | 3001 | 4819 | 537 | 2157 | 72723 | 3379 |
| **Boşananlar** | **735** | **442** | **211** | **119** | **61** | **18** | **31** | **2** | **293** | **908** | **1235** |
| Şəhər əhalisi | 379 | 233 | 125 | 65 | 29 | 7 | 7 | | 146 | 408 | 1077 |
| Kənd əhalisi | 356 | 209 | 86 | 54 | 32 | 11 | 24 | 2 | 147 | 500 | 1404 |
| **Dullar** | **6713** | **5807** | **577** | **729** | **927** | **848** | **2418** | **308** | **906** | **27154** | **4045** |
| Şəhər əhalisi | 3242 | 2778 | 352 | 470 | 591 | 486 | 834 | 45 | 464 | 10515 | 3243 |
| Kənd əhalisi | 3471 | 3029 | 225 | 259 | 336 | 362 | 1584 | 263 | 442 | 16639 | 4794 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, III. 1 hissə, 620 səh., s.82

1999-cu ildə qadınların nikah vəziyyəti və doğduğu uşaqların sayına görə bölgüsünün təhlili göstərir ki, 16 və yuxarı yaşlı qadınların ümumi sayının cəmi 54658 nəfər, onlardan doğanlar 39022 nəfər, doğmayanlar 15636 nəfər təşkil edir. 2009-cu ildə isə 15 və yuxarı yaşlı qadınların sayı cəmi 67306 nəfər olmuşdur, onlardan doğanlar 47698 nəfər, doğmayanlar 19.618 nəfərdir. 1999-cu illə 2009-cu il arasında doğum əmsalı 21911 nəfər fərq edir, bu da doğum əmsalının aşağı düşməsi ilə əlaqədardır.

Beləliklə, statistik rəqəmlərin analizi göstərir ki, 1959-1970-ci illərdə ailələrin sayının artım tempi yüksək olmuşdur. 1970-1989-cu illərdə də nikahların sayı artıma meylli idi, lakin Respublikada mənzil probleminin kəskinləşməsi ilə əlaqədar olaraq, əksər yeni yaranan ailələr mürəkkəb ailələrə

qoşulur və bununla da ailələrin ümumi sayının artım tempinin aşagı düşməsinə səbəb olurdular. 1989, 1999 və 2009-cu illərdə ailələrin sayının artım və azalma tempi bir tərəfdən nikahların sayının azalması, digər tərəfdən isə gənc ailələrin maddi vəziyyətlərinin aşağı olması, işsizlik, mənzil şəraitlərinin olmaması səbəbindən azuşaqlılığa meyl göstərmələri ilə bağlıdır (2, 96).

Cədvəl 7

**Şəki rayonu üzrə qadınların nikah vəziyyəti və doğulduğu uşaqların sayına görə bölgüsü (2009-cu il siyahıyaalma materialları əsasında)**

| | Qadınların sayı-cəmi | O, cümlədən, doğanlar | Onlardan doğduğu uşaqların sayı üzrə | | | | | | Doğulan uşaqların ümumi sayı | Doğulan uşaqların orta sayı (hər 1000 qadına) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 | 5 və yuxarı | 10 və yuxarı | | |
| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **Şəki rayonu üzrə -cəmi** | **67306** | **47698** | **7394** | **17288** | **11464** | **5283** | **5799** | **470** | **138064** | **2051** |
| Şəhər əhalisi | 27477 | 18849 | 3539 | 8414 | 4516 | 1558 | 803 | 19 | 44859 | 1633 |
| Kənd əhalisi | 39829 | 28849 | 3855 | 8874 | 6948 | 3725 | 4996 | 451 | 93205 | 2340 |
| **Heç vaxt nikahda olmayanlar** | **15732** | **1** | **0** | **1** | **0** | **0** | **0** | **0** | **2** | **0** |
| Şəhər əhalisi | 7204 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Kənd əhalisi | 8528 | 1 | 0 | 1 | 0 | 0 | 0 | 0 | 2 | 0 |
| **Nikahda olanlar** | **42797** | **39626** | **6076** | **15539** | **9909** | **4185** | **3679** | **228** | **108242** | **2529** |
| Şəhər əhalisi | 16041 | 14960 | 2737 | 7232 | 3551 | 1019 | 413 | 8 | 34307 | 2139 |
| Kənd əhalisi | 26756 | 24666 | 3339 | 8307 | 6358 | 3176 | 3266 | 220 | 73935 | 2763 |
| **Onlardan, rəsmi nikahda olanlar** | 42164 | 39224 | 5926 | 15397 | 9846 | 4173 | 3656 | 226 | 107370 | 2546 |
| Şəhər əhalisi | 15989 | 14922 | 2717 | 7219 | 3546 | 1019 | 413 | 8 | 34246 | 2142 |
| Kənd əhalisi | 26175 | 24302 | 3209 | 8178 | 6300 | 3154 | 3243 | 218 | 73124 | 2794 |
| **Boşananlar** | **1118** | **805** | **422** | **256** | **76** | **30** | **21** | **0** | **1410** | **1261** |
| Şəhər əhalisi | 534 | 402 | 233 | 137 | 21 | 8 | 3 | 0 | 617 | 1155 |
| Kənd əhalisi | 584 | 403 | 189 | 119 | 55 | 22 | 18 | 0 | 793 | 1358 |
| **Dullar** | **7959** | **7266** | **896** | **1492** | **1479** | **1058** | **2099** | **242** | **28410** | **3709** |
| Şəhər əhalisi | 3698 | 3487 | 569 | 1045 | 944 | 531 | 387 | 11 | 9935 | 2687 |
| Kənd əhalisi | 3691 | 3779 | 327 | 447 | 535 | 527 | 1712 | 231 | 18475 | 4664 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 2009-cu il,Bakı, 2010, IV cild, 863 səh., s.90

Belə ki, 1999 - 2009-cu il əhali siyahıyaalmalarının müqayisəsi göstərir ki, 1999-cu ildə biruşaqlı ailələrin göstəricisi 22,5 faiz, 2009-cu ildə 30,1 faiz, 4 və daha çox uşaqlı ailələrin statistikası 1999-cu ildə 16,7 faiz, 2009-cu ildə 9,7 faiz olub. Göründüyü kimi, 1 və 2 uşaqlı ailələrin sayı artmış, 4 və daha çox uşaqlı ailələrin sayı isə azalmışdır.

Bu tendensiya davam edərsə, əhalinin növbəti siyahıyaalınmasında daha fərqli nəticələrin şahidi ola bilərik.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. Bakı şəhəri, 9 dekabr 1999-cu il № 290.
2. Məmmədova M.H., Məmmədova V.F., Quliyeva N.Q., Rəhimova Z.R. Azərbaycanda

demoqrafik inkişafın xüsusiyyətləri və perspektiv meylləri. Kollektiv monoqrafiya. Bakı: Səda, 2007, 244 s.
3. Аллахвердиев М.М., Мамедов К.В. Демографический энциклопедический словарь. Главный редактор Д.И. Валентей. М.: 1985. Советская энциклопедия.
4.Численность, состав, естественное и механическое движение населения Азербайджанской ССР. Статистический сборник. Центральное статистическое управление при Совете Министров Азербайджанской ССР. Баку, 1967 г. 375 с. Численность, состав и миграция населения Азербайджанской ССР в 1975 году. Статистический сборник. Центральное статистическое управление при Совете Министров Азербайджанской ССР. Баку, 1976, 339 с.
5.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il. Bakı: Səda, 2000, III. 1 hissə, 620 s.
6.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 2009-cu il. Bakı, 2010, IV cild, 863 s.
7. Azərbaycan Respublikası Əhalisinin Siyahıyaalınması 2009-cu il. I cild. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2010, 629 s.

## ПОЛОЖЕНИЕ СЕМЬИ И БРАКА НАСЕЛЕНИЯ ШЕКИНСКОГО РАЙОНА (на основе материалов переписи)

**А.А.МАМЕДОВА, У.М.ПАШАЕВА**

### РЕЗЮМЕ

Исторически Азербайджан славится как страна с устоявшимися семейно-брачными традициями. До последнего времени они были незыблемыми. Однако, интеграция в глобализующийся мир, влияние со стороны, внутри социально-экономические процессы влияют на изменение традиций в азербайджанском обществе. Статистика указывает на изменения в семейно-брачных отношениях, что, в целом, оказывает серьезное влияние на демографическое положение института семьи и брака. С этой точки зрения изучение данной проблемы является приоритетным и остается в центре внимания исследователей.

В статье исследованы сложившиеся семейно-брачные отношения и анализированы причины влияния на них конкретно на примере населения Шекинского района.

**Ключевые слова:** Шекинский район, население, семья и брак, демография

## FAMILY-MARRIAGE RELATIONS OF SHAKI`S POPULATION IN THE XX CENTURY (on the basis of population census materials)

**A.A.MAMMADOVA, U.M.PASHAYEVA**

### SUMMARY

The paper studies the family problems, birthrate and child mortality in the period from 1975-2009 on the basis of statistic materials (Population census of the Soviet Union and the Azerbaijan Republic). A sharp decrease in the number of families in 1999 and 2009 can be explained by 2 factors: firstly, a decrease in the welfare of young families and secondly, because of absence of normal living conditions. It is obvious that there is a downward trend in the number of young families.

**Key words:** Shaki region, population, family and marriage, demographics